# "İnvestisiya fondları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 10-cu bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** "İnvestisiya fondları haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 11, maddə 950; 2014, № 10, maddə 1161; 2015, № 11, maddə 1261) aşağıdakı dəyişikliklər edilsin:

1.1. mətn üzrə ismin müvafiq hallarında "dövlət tənzimlənməsi və nəzarəti" sözləri ismin müvafiq hallarında "tənzimlənmə və nəzarət" sözləri ilə əvəz edilsin;

1.2. 1.1.7-ci, 26.5-ci, 34.2-ci, 43.1.6-cı və 53.3-cü maddələrə "normativ hüquqi" sözlərindən sonra "və normativ xarakterli" sözləri əlavə edilsin;

1.3. 24.4-cü, 25.3-cü, 36.1.9-cu və 38.2.1-ci maddələr istisna olmaqla, mətn üzrə ismin müvafiq hallarında "aktivlərin idarə edilməsi" sözləri ismin müvafiq hallarında "investisiya fondlarının idarə edilməsi" sözləri ilə əvəz edilsin;

1.4. 1.1.9-cu maddədə "qiymətli kağızlar bazarında peşəkar" sözləri "lisenziyalaşdırılan" sözləri ilə əvəz edilsin;

1.5. 1.1.11-ci maddə aşağıdakı redaksiyada verilsin:

"1.1.11. investisiya fondunun depozitarı (bundan sonra - depozitar) - investisiya fondunun depozitarı fəaliyyətinin həyata keçirilməsi üçün xüsusi razılığa (lisenziyaya) malik olan şəxsdir;";

1.6. 1.1.14-cü maddə aşağıdakı redaksiyada verilsin:

"1.1.14. maliyyə bazarlarına nəzarət orqanı - maliyyə bazarlarında tənzimlənmə və nəzarətin həyata keçirilməsi məqsədilə müvafiq icra hakimiyyəti orqanının yaratdığı qurum;";

1.7. mətn üzrə ismin müvafiq hallarında "nəzarət orqanı" sözləri ismin müvafiq hallarında "maliyyə bazarlarına nəzarət orqanı" sözləri ilə əvəz edilsin;

1.8. 2.1-ci maddəyə "aktları," sözündən sonra "maliyyə bazarlarına nəzarət orqanının normativ xarakterli aktları," sözləri əlavə edilsin;

1.9. mətn üzrə ismin müvafiq hallarında "investisiya fondlarının dövlət reyestri" sözləri ismin müvafiq hallarında "investisiya fondlarının və onların idarəçilərinin dövlət reyestri" sözləri ilə əvəz edilsin;

1.10. 4.1-ci maddənin 2-ci cümləsinə "fondlarının" sözündən sonra "və onların idarəçilərinin" sözləri, "fondları" sözündən sonra "və onların idarəçiləri" sözləri əlavə edilsin;

1.11. 4.2-ci maddədə "səhmdar investisiya fondu fəaliyyətinə" sözləri "müvafiq" sözü ilə əvəz edilsin;

1.12. 5.9-cu maddə aşağıdakı redaksiyada verilsin:

"5.9. Səhmdar investisiya fondunun səhm mülkiyyətçilərinin reyestri mərkəzi depozitar tərəfindən aparılır.";

1.13. 7.5-ci maddə aşağıdakı redaksiyada verilsin:

"7.5. Səhmdar investisiya fondunun səhmləri ilə əqdlər investisiya şirkətləri vasitəsilə bağlanılır.";

1.14. 7.6-cı maddədə "dövlət qeydiyyatına alındıqdan" sözləri "təsdiq edildikdən" sözləri ilə əvəz edilsin;

1.15. 11.1-ci, 23.3-cü, 25.2-ci, 29.1-ci, 30.1-ci, 31.3-cü və 48.1.2-ci maddələrdə "hüquqi" sözü "xarakterli" sözü ilə əvəz edilsin;

1.16. 20.2-ci maddədə "qiymətli kağızlar bazarının peşəkar iştirakçısı olan reyestrsaxlayıcı" sözləri "mərkəzi depozitar" sözləri ilə əvəz edilsin;

1.17. 24.2-ci maddənin 2-ci cümləsində "peşəkar" sözü "lisenziyalaşdırılan" sözü ilə əvəz edilsin;

1.18. 24.3-cü, 34.1-ci, 46.1-ci və 48.1.12-ci maddələrdə ismin müvafiq hallarında "qanunvericilik aktları" sözləri ismin müvafiq hallarında "normativ hüquqi və normativ xarakterli aktlar" sözləri ilə əvəz edilsin;

1.19. 24.4-cü, 25.3-cü, 36.1.9-cu və 38.2.1-ci maddələrdən "aktivlərinin" sözü çıxarılsın;

1.20. 28.4-cü maddədə "reyestrsaxlayıcısı" sözü "mərkəzi depozitar" sözləri ilə əvəz edilsin;

1.21. 28.10-cu, 37.3-cü və 39.3-cü maddələrin birinci cümlələrindən "digər" sözü çıxarılsın, həmin maddələrin ikinci cümlələrində ismin müvafiq hallarında "tələb" sözü "sorğu" sözü ilə əvəz edilsin;

1.22. 39-cu maddə üzrə:

1.22.1. 39.2-ci maddənin üçüncü cümləsində və 39.4-cü maddədə "40.1-ci maddəsində" sözləri "39.1-ci maddəsində" sözləri ilə əvəz edilsin;

1.22.2. 39.5.1-ci maddə "39-cu maddəsində" sözləri "38-ci maddəsində" sözləri ilə, "40.2-ci maddəyə" sözləri "39.2-ci maddəyə" sözləri ilə əvəz edilsin.

1.23. 40.6-cı maddədə "39.1.5-ci maddəsində" sözləri "38.1.5-ci maddəsində" sözləri ilə əvəz edilsin;

1.24. 41.1.10-cu maddədə "qanunvericiliyin" sözü "hüquqi aktların" sözləri ilə əvəz edilsin;

1.25. 47.13-cü maddədə "depozitarın və reyestrsaxlayıcının" sözləri "mərkəzi depozitarın" sözləri ilə əvəz edilsin;

1.26. 51-ci maddə aşağıdakı redaksiyada verilsin:

"Maddə 51. Maliyyə bazarlarına nəzarət orqanına ödənilən haqlar

İnvestisiya fondları və onların idarəçiləri maliyyə bazarlarına nəzarət orqanına onun müəyyən etdiyi məbləğdə və qaydada haqlar ödəyir.".

**Maddə 2.** Bu qanun qüvvəyə mindiyi tarixədək səhmdar investisiya fondu və aktivlərin (investisiya fondunun) idarə edilməsi üzrə fəaliyyətlərə verilmiş lisenziyalar, habelə həmin fəaliyyətlərdən irəli gələrək verilmiş icazələr qanunla müəyyən edilmiş hallarda ləğv edilənədək öz qüvvəsini saxlayır və onların yenidən rəsmiləşdirilməsi tələb olunmur.

**Maddə 3.** Maliyyə bazarlarına nəzarət haqqında müvafiq qanun qəbul edilənədək investisiya fondu və investisiya fondunun idarə edilməsi üzrə fəaliyyətlərin yoxlanılması maliyyə bazarlarına nəzarət orqanı tərəfindən müəyyən edilən qaydada aparılır.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 4 mart 2016-cı il*